Azerbaijan Society of Appraisers

Azərbaycan Qiymətləndiricilər Cəmiyyəti

# PRESS - RELİZ

# 2017

**PRESS-RELİZ**

19 oktyabr 2017-ci il tarixdə, saat $11^{00}$-da "MAK Consultansy Bakı LTD"-nin dəyirmi zalında Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin İdarə Heyətinin növbədənkənar iclası keçirilmişdir.

İdarə Heyətinin iclasında Cəmiyyətin 9 ay ərzində gördüyü işlər dinlənilmiş və təşkilati məsələlərə baxılmışdır.

AQC-nin təsisçisi və fəxri sədri, Avrasiya Qiymətləndiricilər Birlikləri İdarə Heyətinin sədri, Milli Məclisin üzvü, professor Xanhüseyn Kazımlı iclası açaraq Heyət üzvlərini Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik etmiş, öz arzu və diləklərini ifadə etmişdir.

İclasda AQC İdarə Heyətinin sədri Ramil Osmanlının vəzifədən azad olunması ilə bağlı müraciəti dinlənilmişdir. O, istefasının səbəbini ötən 9 ay ərzində Cəmiyyətin fəaliyyətində dönüş yarada bilməməsində və səhhətində yaranmış ciddi problemlərlə əlaqələndirmişdir.

Milli Məclisin üzvü XanhüseynKazımlı və digərləri çıxış edərək Ramil Osmanlının ona etibar edilən vəzifəsini doğrultmamasını təəssüf hissi ilə qeyd etmişdilər. Bildirilmişdir ki, Ramil Osmanlı bu çətin, lakin şərəfli missiyanın cavabdehliyini öncədən görməli və bu etimada razılıq verməməli idi.

Təəssüf hissi ilə qeyd olunmuşdur ki, AQC qiymətləndirmə sahəsində ilk yaradılan Cəmiyyət olmaqla yanaşı, bir çox üstünlüklərə malik olsa da, bu vaxta kimi konkret layihələrə imza ata bilməmişdir. Halbuki, son 20 ildə Azərbaycanın maliyyə, əmlak, və konkret biznes sahələrində böyük nəaliyyətlər əldə olunmuşdur. Eyni zamanda nəzərə çatdırılmışdır ki, AQC-nin işində yaxın günlərdə kəskin dönüş yaratmaq üçün *"Fəaliyyət Planı"* hazırlanaraq təsdiq edilməlivə yerinə yetirilməsinə ciddi nəzarət olunmalıdır.

İclasda Cəmiyyətin İdarə Heyəti üzvləri tərəfindən Ramil Osmanlının istehfa ərizəsi əsas götürülərək, AQC-nin İdarə Heyətinin sədri vəzifəsindən azad edilmişdir. AQC-nin sədri vəzifəsinin icrası Cəmiyyətin növbəti konfransına kimi İdarə Heyətinin sədrinin müavini Nüsrət İbrahimova həvalə edilmişdir. AQC-nin növbəti konfransının 2018-ci ilin I rübündə keçirilməsinin nəzərdə tutulmasına qərar verilmişdir.

***Təşkilat Komitəsi***